

*"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".*
*Heydər Əliyev*

**Heydər Əliyev - xalq birliyi əbədidir!**

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 21 (416) | 28 noyabr 2014-cü il | Qiyməti 50 qəpik

**Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı**


# İlham Əliyev Bakı Oksford məktəbinin yeni binasının açılışında iştirak edib





Prezident İlham Əliyev Bakı Oksford məktəbinin yeni binasının açılışında iştirak edib.

Zəngin təbii ehtiyatları ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə etməklə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca amil seçib. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərini təşkil edir. Son illərdə dövlətimizin başçısının ölkədə məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı sərəncam və tapşırıqlarına uyğun olaraq yüzlərlə məktəb binası tikilib və ya təmir olunub. Prezidentin sərəncam və tapşırıqlarına uyğun ümumtəhsil məktəblərinin informasiya-kommunikasiya texnologiyaları ilə təminatı gücləndirilib. Hökumət ucqar bölgələrdə müəllim çatışmazlığını aradan qaldırmaqla bağlı müvafiq proqram qəbul edib.

Heydər Əliyev Fondu da dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına güclü dəstək verib. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" və "Təhsilə dəstək" layihələri çərçivəsində ölkə üzrə yüzlərlə orta məktəb binası tikilib və bu proses davam etdirilir. Yüksək şəraiti, müasir təlim avadanlığı ilə diqqət çəkən bu təhsil ocaqlarından biri də Bakı Oksford məktəbidir. Məktəbin yeni binasında təlim-tədrisin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılıb. Bakı Oksford məktəbi 1998-ci ildə təsis olunub. Məktəbdə həm milli, həm də beynəlxalq təhsil standartlarını özündə əks etdirən müasir proqram həyata keçirilir.

Məktəbin təsisçisi Mehriban Məmmədova görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi ki, təhsil ocağının binası ən müasir tələblər səviyyəsində inşa olunub. Altımərtəbəli binanın ümumi sahəsi 30 min kvadratmetrdir. Bakı Oksford məktəbinin həyətində təhsilimizin inkişafında böyük xidmətləri olan ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılıb.

Prezident İlham Əliyev Bakı Oksford məktəbinin yeni binasının rəmzi açılışını bildirən lenti kəsdi.



## İlham Əliyev Yeni Zelandiyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Prezident İlham Əliyev Yeni Zelandiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Conatan Endryu Karrın etimadnaməsini qəbul edib.

Səfir Conatan Endryu Karr fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Conatan Endryu Karr etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Yeni Zelandiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Conatan Endryu Karr Azərbaycanda diplomatik fəaliyyətə başlamasından məmnun olduğunu dedi.

Azərbaycan ilə Yeni Zelandiya arasında çox yaxşı siyasi əlaqələrin olduğunu deyən dövlətimizin başçısı bu əlaqələrin iqtisadi sahədə də inkişaf etdirilməsi üçün güclü qarşılıqlı siyasi iradənin olduğunu vurğulayaraq biznes, sərmayə qoyuluşu və digər sahələrdə imkanların araşdırılmasının zəruriliyini qeyd etdi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## İlham Əliyev Avstraliyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Prezident İlham Əliyev Avstraliya İttifaqının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ceyms Martin Larsenin etimadnaməsini qəbul edib.



Səfir Ceyms Martin Larsen fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Ceyms Martin Larsen etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycan Respublikası ilə Avstraliya İttifaqı arasında yaxşı əlaqələrin mövcud olduğunu vurğulayan dövlətimizin başçısı Avstraliyanın Baş naziri ilə görüşünü və ikitərəfli münasibətlərimizin inkişafı ilə bağlı apardıqları müzakirələri məmnunluqla xatırladı. Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin perspektivləri, qarşılıqlı biznes və investisiya imkanlarının öyrənilməsi istiqamətində işlərin aparılmasının vacibliyini qeyd etdi.

Avstraliya İttifaqının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ceyms Martin Larsen ölkəsinin Azərbaycan ilə ikitərəfli əlaqələri müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi, təhsil və digər sahələrdə inkişaf etdirməkdə maraqlı olduğunu dedi. O, ikitərəfli münasibətlərimizin genişləndirilməsi işində səylərini əsirgəməyəcəyinə əminliyini ifadə etdi.

# Yeni Ağstafanın təməli qoyulur

***Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramına uyğun olaraq Ağstafada yeni infrastruktur yaradılır, tikinti-quraşdırma və abadlıq işləri genişləndirilir. Son illərdə rayon mərkəzində görülən misilsiz işlər hamının ürəyindən xəbər verir. Rayonun şəhər və kəndlərində tikilən yeni məktəblər, çoxmərtəbəli yaşayış binaları, hər cür şəraiti olan uşaq baxçaları, göz oxşayan ictimai binalar, tamamilə yenidən qurulan yeni parklar, çəkilən asfalt yollar Ağstafamızın xoşbəxt gələcəyindən xəbər verir.***







Sevindirici hal odur ki, sadaladığımız tikinti və quruculuq işləri planlı şəkildə davam etdirilir. Respublika Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə hər dəfə Ağstafada yeni layihələr həyata keçirilir, şəhərimizin daha gözəl bir məkana çevrilməsi üçün yeni addımlar atılır. Bu günlərdə şəhərin yeni məhəlləsində yeni bir binanın tikintisi üçün təşkil edilmiş təntənəli təməlqoyma mərasimi də belə layihələrdən biridir.

Ana təbiətin əsrarəngiz gözəlliyini özündə təcəssüm etdirən cazibədar payız mərasimə toplaşanların sevincinə xüsusi ovqat qatmışdı. Yeni məhəllə boyu uzanan Hüseyn Arif küçəsi həmin gün daha izdihamlı idi. Axı, burada ağstafalılar üçün gözəl bir hədiyyə olan yeni musiqi və incəsənət mərkəzinin təməli qoyulurdu. Tamamilə fərqli bir layihə-milli musiqi alətimiz olan udun formasında tikiləcək yeni binanın təməlqoyma mərasiminə xeyli adam toplaşmışdı. Hamı tikinti meydanının bir tərəfində böyük lövhələrdə vurulmuş şəkillərə maraqla tamaşa edirdi. Bu şəkillərdə yeni musiqi və incəsənət mərkəzinin quruluşu, binanın işərisi, çölü və həyəti, maraqlı mozaikaları əks olunmuşdu. Bununla yanaşı duran lövhədə isə tamamilə yenidən qurulan rayon mədəniyyət evinin əsaslı təmirdən sonrakı vəziyyəti təqdim olunurdu. Hər iki layihələrdə təsvir olunan könül oxşayan mənzərələrə həyəcansız, heyransız baxmaq mümkün deyildi.

İştirakçıların belə bir yüksək əhval-ruhiyyəsi və marağı ilə təməlqoyma mərasimi başlandı. Təntənəli mərasimi giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev bu bayram münasibətilə bütün ağstafalıları təbrik etdi. O, bildirdi ki, bəli, bu gün şəhərimizdə əsl tikinti bayramıdır. Biz elə bir gözəl tikintinin təməlini qoymağa yığışmışıq ki, respublikanın heç bir yerində onun tayı-bərabəri olmayacaq. Tamamilə yeni bir üslubda tikiləcək musiqi və incəsənət mərkəzi gündən-günə abadlaşan, yeniləşən Ağstafamıza yeni bir gözəllik, yaraşıq, möhtəşəmlik bəxş edəcəkdir. Bu gözəlliyi, bu sevinci bizə bəxş edən, rayonumuzun abadlığına və yeniləşməsinə müntəzəm diqqət və qayğı göstərən əziz Prezidentimiz cənab İlham Əliyevə ürəkdən minnətdarlıq edirik.

Sonra başçı bildirdi ki, belə bir möhtəşəm binanın bünövrəsini qoymaqla biz bu gün yeni Ağstafanın bünövrəsini qoyacağıq. Bəli, gələn ildən şəhərin bu məhəlləsində böyük tikinti-abadlıq və quruculuq işləri aparılacaqdır. Möhtərəm Prezidentimizin təşəbbüsü və köməyi ilə burada yeni avtovağzal, idman kompleksi, diaqnostika mərkəzi, məktəb, inzibati idarə binaları tikiləcəkdir. Bu işlər başa çatdıqdan sonra Ağstafanın mərkəzi bu yerlərə köçəcəkdir.

Təməlqoyma mərasimində rayon Ağsaqqallar Şurasının sədri F.Heydərli, musiqi məktəbinin müəllimi E.Abbasquliyeva, qocaman müəllim M.Məmmədov, tikinti təşkilatının rəhbəri V.Məmmədov, layihənin memarı C.Həsənov, rayon qəzetinin baş redaktoru İ. Əliyev və başqaları çıxış edərək şəhərimizin bu günkü gözəlliyi, yeni tikintilərin sayının çoxalması və abadlığın geniş vüsət alması üçün ölkə başçısına və onun sərəncam və göstərişlərini ləyaqətlə yerinə yetirən rayon icra hakimiyyəti başçısına, bütün inşaatçılara dərin minnətdarlıqlarını bildirdilər.

Sonra təməlqoyma mərasimi başlandı. İçərisinə binanın tikintisi barədə məlumat yazılmış kağız qoyulmuş kapsul binanın özülünə atıldı, rayon rəhbərləri, ziyalılar və ağsaqqallar rəmzi olaraq binanın özülünə beton qarışığı tökdülər. Sonra isə nəhəng qurğuların köməyi ilə tikintinin özülünə hazır beton məhlulu töküldü.



# Həsənsu kəndində görüş

Həsənsu kəndi rayonun ən iri yaşayış məntəqələrindən biridir. Burada 2177 nəfər əhali yaşayır. 884 təsərrüfatı olan kəndin əhalisinin əsas məşğulluğu taxılçılıq, üzümçülük və heyvandarlıqdır.

Son illər kəndin sosailiqtisadi inkişafının daha da sürətləndirilməsi istiqamətində xeyli iş görülmüşdür. Lakin bütün bunlarla yanaşı kənddə bəzi problemlər hələ də qalmaqdadır.

Bu günlər Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyevin kənd ictimaiyyəti ilə keçirdiyi görüşdə həmin problemlər yenidən gündəmə gətirilmiş və bu çətinliklərin aradan qaldırılması üşün təkliflər irəli sürülmüşdür.

Görüşdə çıxış edən M. Quliyev əvvəlcə respublikada aparılan böyük quruculuq, yenidənqurma, abadlıq işləri barədə kənd sakinlərinə qısa məlumat vermişdi.



O, qeyd etmişdir ki, artıq Azərbaycan dövləti dünyanın ən inkişaf etmiş dövlətləri sırasındadır. Möhtərəm prezidentimiz İlham Əliyev cənabları tərəfindən aparılan uğurlu daxili və xarici siyasət öz müsbət nəticəsini vermiş və əldə olunan nailiyyətlər Azərbaycan xalqının yaşayış səviyyəsinin daha da yaxşılaşması ilə nəticələnmişdi.

Bu nailiyyətlər Ağstafa rayonunun timsalında da özünü əks etdirmiş və son illər rayonun sosial-iqtisadi həyatında bir sıra irəliləyişlər əldə olunmuşdur. Bütün bunlarla yanaşı yaxın gələcəkdə Ağstafada çox böyük işlərin görülməsi nəzərdə tutulur. Bu günlər şəhərin Hüseyn Arif küçəsində analoqu olmayan musqi və incəsənət mərkəzinin təməlinin qoyulması bunun bariz nümunəsidir. BIz həmin ərazidə yeni Ağstafanın salınmasını planlaşdırırıq və yaxın gələcəkdə söz yox ki, buna nail olacağıq.

Yığıncaqda çıxış edən Həsənsu kənd orta məktəbinin müəllimi Günay Mehdiyeva ilk öncə məktəbdə aparılan əsaslı təmir işlərini qeyd etdi və göstərdi ki, görülən işlər məktəbdə təhsilin müasir tələblər səviyyəsində təşkil olunmasına təminat vermir. Odur ki, mən məktəbimizin kollektivi və bütün valideynlər adından kəndimizdə yeni müasir tipli məktəbin inşa olunmasını xahiş edirəm.

Kənd sakini Yolçu Vəliyev, Mətanət Rəhimova öz çıxışlarında Ağstafa-Köçəsgər yolunun təmir olunmasını, kənddəki kəhriz quyularının bərpa edilməsini xahiş etdilər.

M.Quliyev kənd sakinləri tərəfindən irəli sürülən təkliflərə, edilən xahişlərə öz münasibətini bildirdi və həmin təkliflərin icra olunması üçün müvafiq təşkilatların rəhbərlərinə tapşırıqlar verdi.

# Yeni Azərbaycan Partiyasının 22-ci ildönümü

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Yeni Azərbaycan Partiyasının 22-ci ildönümü tamam olur. Respublikamızın hər yerində dövrün partiyasının yubileyi təntənə ilə qeyd olunur.

Bu günlərdə YAP Ağstafa rayon təşkilatında da yubiley yığıncağı keçirilmişdir. Yubiley yığıncağını giriş sözü ilə YAP Ağstafa rayon təşkilatının sədri Ramiz Tatarov açmışdır. O, qeyd etmişdir ki, dünənin, bü günün partiyası olan Yeni Azərbaycan Partiyası xalqın tam etimadını qazanmış partiyadır. Bu gün onun adı dünyanın ən tanınmış partiyaları ilə yanaşı çəkilir. Ötən 22 ildə böyük inkişaf yolu keçmiş YAP müstəqil Azərbaycanın xoşbəxt gələcəyi naminə düzgün daxili və xarici siyasət yeridir. Buna görə də xalq öz partiyasına inanır, onun ətrafında daha sıx birləşir.

Yubiley yığıncağında çıxış edənlər partiyanın yaranması yolunda rayon təşkilatının həyata keçirdiyi mühüm tədbirlərdən, gördüyü işlərdən söhbət açmışlar. Bu gün partiya sıralarının durmadan artması, partiya üzvlərinin respublikada, o cümlədən rayonumuzda aparılan tikinti-abadlıq və quruculuq işlərində öndə gedirlər. Onlar həmişə olduğu kimi, qarşıdakı bələdiyyə seçkilərində də öz fəallıqları ilə seçkilərin uğurla başa çatmasina, demokratiya və şəffaflıq şəraitində keçməsinə yardımçı olacaqlar.

Yığıncağın sonunda fəal partiya üzvlərindən bir neçə nəfərinə xatirə hədiyyə verilmişdir.

# Bələdiyyə seçkiləri yaxınlaşır

Artıq bir neçə gündür ki, ölkəmizin hər yerində bələdiyyə seçkilərinə start verilmişdir. Ötən müddətdə Mərkəsi Seçki komissiyasının müvafiq qərarına uyğun olaraq rayonumuzda xeyli iş görülmüş və demək olar ki, seçkilərə hazırlıq işləri tam başa çatdırılmışdır.

108 saylı Dairə seçki komissiyasından verilən məlumatardan aydın olur ki, bu ilki seçkilərdə rayonumuzda 42 minə yaxın seçici iştirak edəcəkdir. Seçicilərin öz səslərini istədikləri namizədə sərbəst, demokratik qaydada vermələri üçün bütün seçki məntəqələrində lazımi şərait yaradılmışdır.

Rayonun yaşayış məntəqələrində noyabr ayının 22-dək namizədlərin irəli sürülməsi davam etdirilmişdir. Noyabr ayının 23-dən namizədlərin qeydə alınması işinə başlanılmış və 621 nəfər namizədin qeydə alınması qanuni hesab edilmişdir. Bu proses noyabr ayının 30-dək davam etdiriləcəkdir.

Seçkilərin şəffaf keçirilməsi üçün seçki məntəqələri tam hazır vəziyyətə gətirilmiş, məntəqələr lazımi avadanlıqlarla, təlimatlarla təmin olunmuşdur.

Qəzetimiz çapa hazırlanarkən 108 saylı Dairə Seçki komissiyası ilə bir daha əlaqə saxlanıldı. Komissiyanın sədri T. Eyyubov bildirdi ki, seçkilərə start verilən gündən çalışmışıq ki, bütün işlər seçki haqqında qanunun tələblərinə uyğun aparılsın və demək olar ki, buna tam nail olmuşuq. Mən əminəm ki, dekabr ayının 23-də bütün seçicilərimiz seçki məntəqələrinə gələcək, sərbəst şəkildə istədikləri namizədə səs verəcəklər.

# Elmi konfrans

***Bu günlərdə 17 noyabr Milli Dirçəliş günü münasibətilə Ağstafadakı Heydər Əliyev Mərkəzində elmi konfrans keçirilmişdir. Konfransa rayon icra hakimiyyəti aparatının işçiləri, təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin nümayəndələri, ziyalılar və ağsaqqallar dəvət olunmuşdular.***



Konfransı giriş sözü ilə rayon icra hakimiyyəti başçısının müavini Aydın Hacıyev açmışdır. O, xalqın milli azadlıq ideyalarının həyata keçirilməsində xalq hərəkatının rolundan bəhs etmişdir. Qeyd etmişdir ki, Azərbaycanın ikinci dəfə öz müstəqilliyinə qovuşmasında Bakının Azadlıq meydanında baş verən hadisələrin böyük təsiri olmuşdur. Azadlıq və müstəqillik ideyası ilə silahlanaraq ayağa qalxan xalqın bu mübarizəsinin qarşısı alınmaz olmuşdur. Nəticədə ulu öndər Heydər Əliyevin müdrik siyasəti və ağıllı rəhbərliyi ilə xalq öz müstəqil dövlətini yaratdı və onu daha da möhkəmləndirmək naminə mühüm tədbirlər gördü. Bu gün respublikamız Heydər Əliyev məktəbinin layiqli davamçısı olan cənab prezidentimiz İlham Əliyevin ciddi səyi və fəal işgüzarlığı ilə müstəqillik yolunda inamla irəliləyir, çox böyük uğurlara imza atır.

Elmi konfransda Ağstafa şəhər 1 nömrəli tam orta məktəbinin tarix müəllimi, əməkdar müəllim İndira Səmədova, rayon gənclər və idman idarəsinin məsul işçisi Turan Hüseynov, Qaçaq Kərəm kənd tam orta məktəbinin tarix müəllimi Sevinc Hacıyeva, rayon mərkəzi kitabxanasının işçisi Laçın Məhərrəmova, "Ağstafa" qəzetinin redaktoru İbrahim Əliyev çıxış etmiş, Milli dirçəlişin bəhrələrindən danışmışlar.

# Aktual və məzmunlu tədbirlər

Rayonumuzun ümumtəhsil müəssisələrində cari tədris ili uğurla davam etdirilir. Pedaqoji kollektivlər şagirdlərin bilik səviyyələrini artırmaq üçün yaradılmış imkanlardan maksimum istifadə edirlər. Bununla yanaşı tədris prosesində müxtəlif tədbirlərin keçirilməsinə də diqqət yetirilir, şagirdlərin fəallığına imkan yaradılır. Əməkdaşımız Rayon Təhsil şöbəsinin metodkabinet müdiri İmran Nəsibovla görüşmüş, tədbirlərin keçirilməsinə dair məlumat almışdır.

- Şagirdlərin bilik və bacarığını üzə çıxarmaq məqsədilə tədbirlərin ardıcıl keçirilməsinə xüsusi önəm verilir, - deyə İmran müəllim Təhsil şöbəsi tərəfindən keçirilən tədbirlərdən söhbət açdı. O qeyd etdi ki, hər il olduğu kimi bu il də Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilin təşəbbüsü ilə ənənəvi olaraq 20 oktyabr-20 noyabr tarixlərində BMT-nin uşaq hüquqları Konvensiyasının qəbul edilməsinin ildönümü ərəfəsində "Uşaq hüquqları aylığı" elan edilmişdir. Tədbirlər planına əsasən rayonun ümumtəhsil məktəblərinin şagirdləri arasında "Mən və hüquqlarım" mövzusunda inşa və rəsm müsabiqələrinin, müxtəlif mövzularda dəyirmi masaların, təhsil müəssisələrində maariflendirici tədbirlərin, hüquq-mühafizə orqanları nümayəndələri ilə şagirdlərin və s. tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

"Mən və hüquqlarım" mövzusunda V-XI sinif şagirdləri arasında inşa yazı müsabiqəsi keçirilmişdir. Müsabiqənin nəticələrinə əsasən 2 nəfər birinci, 5 nəfər ikinci, 8 nəfər üçüncü yeri tutmuş, Təhsil şöbəsinin diplomları ilə təltif edilmişlər. Təhsil şöbəsində "Mən və hüquqlarım" və "Uşaqlar müharibə və hərbi münaqişələr şəraitində" mövzularında dəyirmi masalar keçirilmiş, şagirdlərlə fikir mübadiləsi aparılmışdır. Hüquq-mühafizə orqanları nümayəndələrinin iştirak ilə rayonun 1 və 2 saylı, Dağkəsəmən kənd 1 və 2 saylı, Poylu, Həsənsu və digər məktəblərdə maariflendirici tədbirlər keçirilmişdir.

* * *

Rayonun ümumtəhsil məktəblərinin XI sinif şagirdlərinə dərsdənkənar vaxtlarda müstəqil Azərbaycan Respublikasının tarixinə aid seçilmiş mövzuların tədris olunması nəzərdə tutulmuşdur. Dərslərin keçirilməsi üçün qrafik hazırlanmış və təsdiq edilmişdir. Dərsləri tədris edəcək müəllimlər də müəyyənləşdirilmişdir. Dərsdə texniki və humanitar təmayüllü liseyin və Qıraq Kəsəmən kənd tam orta məktəblərin 54 nəfər XI sinif şagirdləri iştirak edir. "Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın qurucusu və memarıdır" mövzusunda dərsi Dağkəsəmən kənd 1 saylı tam orta məktəbin tarix müəllimi Pərvanə Poladova tədris edir.

***Q.Qurbanov***

# Dəyirmi masa

Noyabr ayının 13-də Rayon Məşğulluq Mərkəzinin təşəbbüsü ilə dəyirmi masa keçirilmişdir. Rayon statistika idarəsinin akt zalında keçirilən dəyirmi masada Sosial Müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi qaydaları barədə işəgötürənlərin məlumatlandırılması və qeyd olunan əhali kateqoriyasının məşğulluğunun təmin edilməsi sahəsində işəgötürənlərin iştirakı mövzusu müzakirə olunmuşdur.

Rayon Məşğulluq Mərkəzinin direktoru Meydanalı Mansırov tədbir iştirakçılarına müzakirə edilən məsələnin mahiyyəti barədə ətraflı məlumat vermiş, idarə, müəssisə və təşkilatlarda vətəndaşların işə götürülməsi istiqamətində aparılan işlərdən, Rayon Məşğulluq Mərkəzinin işçilərinin onlarla əlaqəli fəaliyyətindən danışmışdır.

M.Mansırov qeyd etmişdir ki, yeni iş yerlərinin açılması və müvəqqəti sərbəstləşmiş işçi qüvvəsinin sosial müdafiə məsələləri sahəsində görülən tədbirlərlə yanaşı əmək bazarının iqtisadi inkişaf tempinə uyğunlaşdırılması, müasir səviyyədə qurulması və əmək potensialından daha dolğun isitfadə edilməsi bu sahədə çalışanların daim diqqət mərkəzindədir. M. Mansırov sosial müdafiəyə xüsusi ehtiyacı olan vətəndaşların kateqoriyasına kimlərin aid olduğu barədə kvota şamilolunmayan müəssisələr barədə də danışmış, "Məşğulluq haqqında" qanunun müvafiq maddəsinə uyğun olaraq işəgötürənlərin vəzifələrini xüsusi qeyd etmişdir.

Dəyirmi masada məşğulluq mərkəzinin baş məsləhətçisi N. Qasımova "Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi barədə işəgötürənlərin məlumatlandırılması və qeyd olunan əhali kateqoriyasının məşğulluğunun təmin edilməsi sahəsində işəgötürənlərin iştirakı" mövzusunda dəyirmi masa iştirakçılarına ətraflı məlumat vermişdir.

Tədbirdə iştirak edən idarə, müəssisə rəhbərləri və bu sahə ilə məşğul olan digər məsul işçilər çıxış etmiş vətəndaşların işlə təmin olunması sahəsində qarşıda duran vəzifələrdən danışmışlar.

Dəyirmi masanın sonunda Məşğulluq Mərkəzinin direktoru M. Mansırov tədbirdə iştirak edənlərə öz təşəkkürünü bildirdi və bütün işəgötürənləri səmimi əməkdaşlıq etməyə dəvət etdi.

# Payız əkini davam edir

Havalar soyuqlaşır, qış yaxınlaşır. Lakin bütün bunlara baxmayaraq, tarlalarda payızlıq əkin- səpin işləri hələ davam edir. Kənd əməkçiləri gələn ilin bol məhsulunun əsasını qoymaq, hər hektardan daha çox məhsul əldə etmək üçün var qüvvə ilə çalışırlar.

Rayonun taxılçıları ötən günlərdə payızlıq əkin-səpin işlərinin sürətini daha da artırmış və indiyə kimi 6350 hektar sahədə şum qaldırmışlar.



Tarla əməkçiləri eyni vaxtda həm də səpin işlərini davam etdirmişlər. Rayon icra hakimiyyətinin müvafiq şöbəsindən redaksiyamıza verilən məlumatdan aydın olur ki, taxılçılarımız indiyə kimi 3975 hektar sahədə taxıl səpmişlər. Payızlıq əkin-səpin işlərinin dekabr ayının 20-dək tam başa çatdırılması üçün bütün qüvvələr səfərbər edilmişdir.


## Hörmətli oxucular!

**Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı olan**

**"Ağstafa"**

qəzetinə 2015-cü ilin birinci yarım ili üçün abunə yazılışına başlandı. Qəzetə rayon mətbuat yayımında və redaksiyanın özündə abunə yazıla bilərsiniz. Qəzetin yarım illik abunə qiyməti 8 manatdır.

Redaksiyanın Kapitalbankın Ağstafa filialındakı hesab nömrəsi AZO4A11B33080019445200229152, VÖEN nömrəsi isə 36000811691-dir.

Qəzetimizə abunə yazılanlara əvvəlcədən öz minnətdarlığımızı bildiririk.


# Ət ucuzlaşdı

Bu gün gündəlik həyatda rastlaşdığımız problemlərdən biri də bəzi ərzaq məhsullarının bazarlarda bahalaşmasıdır. Belə hallar müvafiq orqanlar tərəfindən daim nəzarətdə saxlanılmalı, qiymətlərin süni surətdə artmasına yol verilməməlidir.

Aparılmış təhqiqatlar göstərir ki, bu kimi xoşagəlməz hal son dövrlərdə bazarlarda ətin qiymətinin bahalaşmasında daha çox müşahidə edilir. Yoxlamalardan məlum olmuşdur ki, ətin qiymətinin bahalaşmasında başlıca səbəblərdən biri xeyir-şər məclislərində ətdən israfçılıqla istifadə edilməsidir. Bu məsələ ilə əlaqədar rayonun müvafiq təşkilatları məşğul olmuş və aidiyyəti orqanlara, təşkilatlara göstərişlər və məsləhətlər verilmişdir.

Həyata keçirilən məqsədyönlü işlər, görülmüş tədbirlər öz müsbət nəticəsini vermiş və ətin qiyməti rayonun mərkəzi bazarında, eləcə də digər ət satışı məntəqələrində xeyli ucuzlaşmışdı.

Neçə vaxt idi ki, rayonun mərkəzi bazarında 1 kiloqramı 7 manata satılan mal ətinin qiyməti son günlər 6 manata endirilmişdir. Görülmüş tədbirlər qoyun və quş ətlərinin də qiymətlərinə təsir göstərmişdi.Bütün bunlar rayon ictimaiyyəti tərəfindən böyük razılıqla qarşılanmış, hamı görülən tədbirlərin nəticələrini yüksək qiymətləndirmiş və aidiyyəti təşkilatlara öz təşəkkürlərini bildirmişlər.

# Sosial-iqtisadi inkişaf davamlıdır

Ağstafa rayonu üzrə 2014-cü ilin doqquz ayında sosial-iqtisadi göstəricilərin ilkin nəicələri müəyyənləşdirilmişdir. Belə ki, əvvəlki ilin müvafiq dövrünə nisbətən, cəmi məhsul buraxılışının fiziki həcm indeksi 77.5 faiz, o cümlədən sənaye üzrə 131.7, kənd təsərrüfatı üzrə 94.4, tikinti-quraşdırma üzrə 33.5, nəqliyyat və anbar təsərrüfatı üzrə 105.3, informasiya və rabitə üzrə 126.8, ticarət xidmətləri üzrə 105.5 faiz olmuşdur.

1 oktyabr vəziyyətinə rayonun əhalisinin sayı 84.4 min nəfər, təbii artım 821 nəfər, doğulanların sayı 1267 nəfər, ölənlərin sayı 446 nəfər olmuşdur. Həmin dövrdə 620 nigah, 51 boşanma qeydə alınmdır. Gəncə-Qazax İqtisadi Rayonu üzrə rayonumuz təbii artımın səviyyəsinə görə 4-cü, doğulanların sayına görə 2-ci, nigahların sayına görə 3-cü, boşanmaların sayına görə isə sonuncu yerdədir. Bu, demoqrafik inkişafın ən yaxşı göstəricisidir.

3738.2 min manatlıq sənaye məhsulları istehsal olunmuşdur ki, bu da ötən ilin eyni dövrünə nisbətən (müqayisəli qiymətlərlə) 131.7 faiz təşkil edir. Sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi 31.6 faizdir.

Əsas kapitala yönəldilmiş investisiyanın həcmi 13493.7 min manat, ondan tikinti-quraşdırma işlərinin dəyəri 11078.5 min manat, istifadəyə verilmiş yaşayış evlərinin umumi sahəsi 8881 kvadrat metr, hər nəfərə düşən vəsaitin həcmi 166.7 manat olmuşdur.

Rayonunda 26942 ton payızlıq və yazlıq dənli və paxlalı bitkilər (qarğıdalısız) istehsal edilmiş, 1 hektardan məhsuldarlıq 27.9 sentnerə çatmışdır. 3547 ton tərəvəz, 1378 ton bostan məhsulları, 3440 ton meyvə, 3327 ton üzüm istehsal olunmuşdur. İri buynuzlu mal-qaranın, qoyun- keçilərin sayı artmışdır.

Avtomobil nəqliyyatı ilə 647 min ton yük, 6885 min sərnişin daşınmışdır. Rabitə xidmətlərinin həcmi (müqayisəli qiymətlərlə) 26.8 faiz artaraq, 446.5 min manata çatmışdır. Pərakəndə əmtəə dövriyyəsinin həcmi doqquz ayda 68035.5 min manat, hər nəfərə düşən pərakəndə ticarət dövriyyəsinin həcmi 808.98 manat olmuşdur.

Artıq 2014-cü ilin sonudur. Rayonda hamı ili uğurla başa çatdırmaq, yeni ildə nailiyyətlər əldə etmək üçün çalışır. Bütün bunlar ilin daha yaxşı sosial-iqtisadi göstəricilərlə başa çatdırılmasına zəmin yaradır.

***Tamella Quliyeva,***
***Ağstafa Rayon Statistika İdarəsinin aparıcı iqtisadçısı***

# "Qızıl payız" məhsul bayramı

Şəhərimizdəki uşaq bağçası-körpələr evinin kollektivinin keçirdiyi tədbirlər həmişə ictimaiyyətin, valideynlərin və uşaqların böyük sevincinə səbəb olur. Bu günlər həmin uşaq tərbiyə müəssisəsində keçirlən "Qızıl payız" məhsul bayramı da belə tədbirlərdən biri kimi yaddaşlarda qalmışdır.

Tədbirdə bağçanın müdiri Elmira İsmayılova çıxış edərək öz işləri barədə yığıncaq iştirakçılarına məlumat verdikdən sonra "Qızıl payız" adı altında keçirilən məhsul bayramının mahiyyətindən danışmışdır. O, qeyd etmişdir ki, 75 uşağın tərbiyə olunduğu bu müəssisədə dörd qrup fəaliyyət göstərir. Həmin körpələrin 40 nəfəri qarşıdan gələn növbəti tədris ilində bağça ilə vidalaşacaq, ümumtəhsil məktəblərinə qədəm qoyacaqlar. Onlar məktəb illərində bizim müəssisədə keçirdikləri günləri xatırlayacaq və həmişə bizim haqqımızda düşünəcəklər.



Bayram tədbirində "Qızıl payız"ın ən mühüm xüsusiyyətlərini əks etdirən meyvə sərgisi təşkil olunmuşdu. Bağçanın kollektivi tərəfindən hazırlanan sərgiyə baxan valideynlərin, uşaqların üzlərindəki təbəssüm doğma vətənimizin torpaqlarının bərəkətli olduğunu bir daha əks etdirmişdir.

"Qızıl payız"məhsul bayramında iştirak edən şəhər 1 və 2 saylı orta məktəblərin sinif müəllimləri Vəfa Qurbanova, Validə Hacıyeva, Sevil və Yeganə müəllimə çıxış edərək uşaqlara bu cür sevincli anlar, yaddaqalan günlər bəxş etdiklərinə görə bağçanın bütün işçilərinə öz minnətdarlıqlarını bildirdilər.

Rayon icra hakimiyyəti aparatının məsul işçisi Əziz Məsmalıyev tədbirdə çıxış edərək "Qızıl payız" məhsul bayramının təşkilatçılarına, iştirakçılarına Rayon icra hakimiyyəti aparatının rəhbərliyi adından minnətdarlıq etdi və bu müəssisədə böyüyən körpələrə can sağlığı, daha xoşbəxt günlər arzuladı.

Bayram tədbirinin sonunda körpələrin ifa etdikləri şən rəqslərə tamaşa olundu, onların ifa etdikləri mahnılar dinlənildi. Bir neçə saat davam edən şənlik hamıda xoş təəssürat yaratdı.

# QAZDAN İSTİFADƏ EDƏRKƏN TƏHLÜKƏSİZLİK QAYDALARINA ƏMƏL EDİN!

- İstənilən satış mərkəzindən əldə edilən məişət cihazının müvafiq sənədləri ilə, o cümlədən texniki pasportu, uyğunluq sertifikatı və s. ilə tanış olmalı, onlardan istifadə qaydasını satışı həyata keçirən mağazanın nümayəndəsindən öyrənmək lazımdır.

- Qaz cihazlarının istər obyektdə, istərsə də evdə quraşdırılması mütləq bu sahə üzrə ixtisaslaşmış mütəxəssislər tərəfindən həyata keçirilməlidir.

- Təyinatından asılı olmayaraq obyektlərdə və yaşayış sahələrində standarta uyğun olmayan qaz cihazlarından istifadə etmək olmaz.

- Quraşdırılan hər bir məişət qaz qızdırıcısı tələb olunan standartlara cavab verməli, onların təhlükəsizlik qurğuları daima saz vəziyyətdə olmalı və istifadəsi zamanı müəyyən edilmiş təhlükəsizlik qaydalarına tam riayət edilməlidir.

- Müəyyən məqsədlər üçün qaz cihazlarından qurğu və aqreqatların, hissələrin çıxarılmasına yol vermək olmaz.

**QAZDAN İSTİFADƏ EDƏRKƏN AŞAĞIDAKILARI BİLMƏYİNİZ VƏ ƏMƏL ETMƏYİNİZ VACİBDİR**

- Standarta uyğun olmayan qaz cihazlarından, sobalarından istifadə etmək olmaz;

- Qış mövsümü başlamazdan əvvəl mütəxəssislər tərəfindən sobalara baxış keçirilməli, bütün sobaların tüstü bacaları təmizlənməlidir;

- Qaz sobaları və cihazlar işə salınarkən odluğun qapağı açılmalı, 5-10 dəqiqə hava dəyişdirilməlidir;

- Qaz cihazlarını yanılı qoyub yatmaq, uşaqların, xəstələrin ümidinə qoyub evdən çıxmaq qorxuludur;

- Yanmaqda olan odluqların üstünə maye dağılması təhlükəlidir;

- Qaz cihazına qazın verilməsində rezin şlanqlardan istifadə olunması qəti qadağandır;

- Qaz cihazları olan otaqlarda tezalışan məhsulların yerləşdirilməsi və saxlanılması təhlükəlidir;

- Qaz kəmərlərindən və cihazlarından qazın sızmasını yoxlamaq üçün açıq oddan istifadə etmək qəti qadağandır. Bundan ötrü yalnız sabun məhlulundan istifadə edilməlidir.

- Tüstü bacası çəkmədikdə qazla işləyən suqızdırıcını işə salmaq olmaz;

- Qaz cihazlarından istifadə edərkən pəncərənin nəfəsliyi açıq olmalı, mənzili tərk edərkən qaz cihazları mütləq söndürülməlidir;

- Yanan qaz cihazlarını nəzarətsiz qoymaq, sobaların həddindən artıq qızmasına yol vermək olmaz.

**YADDA SAXLAYIN!**

Mətbəxdə, mənzildə, qaz sızması, qaz iyi hiss edərsinizsə, bu halda hava dəyişdirmək üçün yelçəkənlər yaradılmalı, açıq oddan istifadə edilməməli, elektrik şəbəkəsini qoşub və cihazları oradan ayırmamalı, Fövqəladə Hallar Nazirliyinin "112" xidmətinə, Qaz İdarələrinin Qəza Xidmətinə telefonla xəbər verilməlidir.

***Gəncə Regional Dövlət Yanğın Nəzarəti idarəsi***

# Elan

**Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Ağstafa rayon polis şöbəsində vakant olan orta rəis heyəti vəzifələrində xidmətə qəbulla əlaqədar elan edir.**

Polis sahə inspektoru vəzifəsinə (hüquqşünaslar üçün)

Yetkinlik yaşına çatmayanlar üzrə inspektor vəzifəsinə (müəllimlər üçün)

Müsabiqədə dövlət ali təhsil müəssisələrində hüquqşünas və müəllim (3 il pedaqoji stajı olan) ixtisası almış, yaşı 30-dan yuxarı olmayan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün) boyu 165 sm-dən (qadınlar üçün 160 sm-dən) yüksək olan Azərbaycan Respublikasının DİO-da xidmət keçmə haqqında Əsasnamədə müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müsabiqədə aşağıdakı sənədlər təqdim edilməlidir.

-Şəxsiyyət vəsiqəsi

-Ali təhsil haqqında diplom

-Hərbi bilet (kişilər üçün)

-Əmək kitabçası (olanlar üçün)

-DİO-da orta rəis heyəti vakant vəzifələrin komplektləşdirilməsi üçün müsabiqə 2014-cü il noyabr ayının 24-dən dekabr ayının 24-dək sənədlərin qəbulu həyata keçirilir.

Əlavə məlumat almaq üçün Ağstafa RPŞ-nin Kadrlar Qrupuna müraciət edə bilərsiniz.

**Əlaqə tel:** 070 308 86 49, 050 358 09 49

# Unudulmaz futbolçu



Hər bir insan həyatda öz davranışı, əmək fəaliyyəti ilə bir iz qoyur. Həmin insan yaşadığı dövrdə və dünyasını dəyişdikdən sonra onun qoyduğu işlər bu adamı tanıyanlar tərəfindən xatırlanılır, barəsində xoş sözlər söylənilir. Çoxdur belə insanlar. Onlardan biri də bu yaxınlarda dünyasını dəyişmiş futbolçu Eldar Babayevdir.

E.Babayev 1956-cı ildə Dağkəsəmən kəndində anadan olmuş və ömrünün çox hissəsini idman aləmində ən çox sevilən futbola həsr etmişdi. Eldarı hamıdan çox valideynləri, yaxın qohumları və bir də futbol həvəskarları yaxşı tanıyırdı. O, ömrünün 40 ildən çoxunu yaşıl meydançalarda keçirmiş, Qazax və Ağstafa rayonlarının idman şərəfini qorumaq üçün əlindən gələni etmişdi.

Eldar Babayev bu illər ərzində Qazaxın "Göyəzən", Ağstafanın "Avey" komandalarında oynamış, öz təcrübəli, çevik və taktiki oyunları ilə həmişə azarkeşlərin diqqətini cəlb etmişdi. Onun inamlı, gərgin oyunları həmişə öz bəhrəsini vermiş və təcrübəli oyunçu 1986-cı ildə Göyəzən, 1996-cı ildə isə Avey komandalarında oynayarkən o, Azərbaycan çempionu adına layiq görülmüşdü.

Bu gün futbol həvəskarları Eldar Babayevin "Avey" komandasına gətirdiyi uğurlardan tez-tez danışır və onu xatırlayırlar. Təcrübəli futbolçu dünyasını dəyişsə də onun xatirəsi Avey futbol klubunun kollektivinin, idman həvəskarlarının qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

## Etibarsız sayılır

Dağkəsəmən kənd sakinləri Budaqov Mikayıl Əhməd oğlunun, Həsənova Sədaqət Xəlil qızının, Budaqov Ceyhun Mikayıl oğlunun, Budaqov Tural Mikayıl oğlunun, Budaqov Elvin Mikayıl oğlunun və Budaqov Çingiz Mikayıl oğlunun adlarına olan JVo 1359 və JVo 1360 nömrəli, 50200028 kodlu Torpağın mülkiyyətə verilməsinə dair dövlət aktları itdiyinə görə etibarsız sayılır.

* * *

Köçəsgər kənd sakini mərhum Tağıyev Möhsüm Məhəmmədəli oğlunun adına olan 518 №-li qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Yenigün kənd sakini mərhum Gülümcanov İsmayıl Mehdi oğlunun adına olan texniki pasport itdiyi üçün etibarsız sayılır.

* * *

Hərbi vətənpərvərlik və mütəxəssis hazırlığı mərkəzi MMC-nin Ağstafa rayon filialı tərəfindən Cəfərov Ceyhun Novruz oğlunun adına verilmiş şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR:
İBRAHİM ƏLİYEV

Həmtəsisçi:
*"Ağstafa" qəzetinin jurnalist kollektivi*
*Şəadətnamə № 308*

*Redaksiya heyəti*
*L.Eyyubova, K.Abbasov, V.Əkbərov, İ.Əliyev, N.Mehdixanlı, F.Vəliyev, İ.Mustafayev, A.Tağızadə*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.*

*Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10*
*Tel: 5-14-56*
*mob: (050) 344-26-20*
*Tiraj: 1000*